

■ Xuraman Vəfa



### XOŞ GƏLDİN, BAHAR

Əlində səməni, qoynunda çiçək,
Xoş gəldin elimə, xoş gəldin, bahar!
Gəlişin qəlblərə fərəh gətirib,
Xoş gəldin elimə, xoş gəldin, bahar!

Şəlalə dağlardan kükrəyib daşır,
Bənövşə kolların dibindən baxır.
Eşqin damarımda, qanımda axır,
Xoş gəldin elimə, xoş gəldin, bahar!

Yurda gətirdiyin gəlin mübarək,
Nəğməli rübabın, telin mübarək,
Qədəmin mübarək, ilin mübarək,
Xoş gəldin elimə, xoş gəldin, bahar!

Yanır tonqalları son çərşənbənin,
Nərgiz, yasəməndir çölün, çəmənin.
Süfrəyə bəzəkdir yaşıl səmənin,
Xoş gəldin elimə, xoş gəldin, bahar!

Xonçalar bəzəyib obalar, ellər,
Qarşımda rəqs edir, süzür gözəllər.
Səndən ilham alır, sevən könüllər,
Xoş gəldin elimə, xoş gəldin, bahar!

Aşıqlar şəninə tərif söyləyir,
Təbiət oyanıb, səni gözləyir.
Səni təkcə mən yox, el əzizləyir,
Xoş gəldin elimə, xoş gəldin, bahar.!

### BAYRAM AXŞAMI

Bu bayram axşamı süfrəni açıb,
Üstünə naz-nemət qoydum eşqinlə.
İlıq nəfəsini duyub baharın,
Qəlbimdə xəyallar qurdum eşqinlə.

Süslənib, bəzənib gəlinsayağı,
Aynada gözünlə özümə baxdım.
Eşqimiz adına bir niyyət tutub,
Masa üstündəki şamları yaxdım.

Masanın üstündə şam əridikcə,
Mənim də qəlbimdə ümid azaldı.
Bayırı bürüyən zülmət, qaranlıq,
Sənin əvəzinə qapımı çaldı.

Adına bəzəyib qurduğum süfrə
Səhər açılsa da bəzəkli qaldı.
Sənin kiminləsə açdığın sabah,
Mənim sabahımı əlimdən aldı.

### QURBANIN OLUM

Acı həsrət çöküb sinəmin üstə,
Al məni əlindən, qurbanın olum.
İllərdir hicrana kölə düşmüşəm,
İstərəm ömürlük mehmanın olum.

Başımı sinənə söykəyib yatım,
Sənin qollarında vüsala çatım.
Bilmirəm dərdimi necə anladım,
Çəkilmir həsrətin, qurbanın olum.

Eşqinlə qol, qanad vermisən mənə,
Qəlbimin telləri bağlanıb sənə.
Sevda oylağına gəlmişəm yenə,
İstərəm könüllü bağbanın olum.

Sənsiz dərd gətirir gələn sabahım,
Çarəsiz qalmışam, sənsən pənahım.
Ölsəm boynundadır ahım, günahım,
Dərdimə əlac et, qurbanın olum.

### MƏNİM TALEYİMLƏ İŞİN OLMASIN

Son dəfə baxıram sənlə göz-gözə,
Bir daha üzünə baxmayacağam.
Çıxıb gedəcəyəm çox uzaqlara,
Ölsəm də qarşına çıxmayacağam.

Artıq bundan sonra saray ucaltsan,
Dağılan yuvamız tikilməyəcək.
Qapını üzümə çırpıb getməyin,
Gözümün önündən çəkilməyəcək.

Get hara istəsən, yolun açıqdır,
Daha taleyinə qarışmayacam.
Harda gecələdin, kimlərlə qaldın,
Bundan sonra səndən soruşmayacam.

Tale də sənindir, qərar da sənin,
Mənim taleyimlə işin olmasın.
Mənə bir əmanət ürək vermişdin,
Onu da geri al, məndə qalmasın.

### DÖZƏ BİLMƏRƏM

Yaralı ürəyim sipərdir oxa,
Daha eşq bağında gəzə bilmərəm.
Məni yandırırsan göz baxa-baxa,
Yanıb gül olmağa dözə bilmərəm!

Ürək pərişandır hər axşam-səhər,
Namərdin ovcundan içmişəm qəhər.
Onsuz da həyatda hər şey boş, hədər...
Bir də yanılmağa dözə bilmərəm!

Tanısam, döyərəm mərd qapısını,
Açdım daş ürəkli-sərt qapısını.
Bağladı üzümə bəxt qapısını,
Yara üstdən dağa dözə bilmərəm.

Tufanlar qoparıb, əsdirdin yeli,
Könlümə axıtdın güclü dərd seli.
İndi köməyinə çağırsan eli,
O, eşq dənizində üzə bilmərəm!

Xuraman Vəfayam - ömür, gün keçir,
Hərə bu həyatda öz yolun seçir.
Kimisi şərbəti zəhər tək içir,
Zəhəri şərbət tək süzə bilmərəm!

### BU HİCRAN BİR QƏLBİ YARALAYACAQ

Burax əllərini əlimdən artıq,
Qoy hara aparır aparsın, tale.
Deyirsən mənimlə xoşbəxt olmadın,
Get, səni ağ günə çıxarsın, tale.

Bəlkə qismətində özgə birisi,
Mənim də bəxtimdə başqa biri var.
Zor ilə yazılmır tale yazısı,
Hərənin öz bəxti, öz qədəri var,

Bəlkə peşman olub günün birində,
Yanımdan ötəndə üzüləcəksən.
Gözümün içinə dikib gözünü,
Salam verməyimi gözləyəcəksən.

Bəlkə kiminləsə sən xoşbəxt olub,
Mən hicran oduna qalanacağam.
Yanımdan biganə ötüb keçəndə,
Arxanca sızlayıb, boylanacağam.

Nə fərq edər sən, mən, hansımız olsaq,
Bu hicran bir qəlbi qaralayacaq.
Eşqin öz əmri, öz qanunu var,
Ya səni, ya məni yaralayacaq.

Artıq üzülmürəm nə olur olsun,
Ürək də sızlayıb bir gün duracaq.
Bu eşqdə günahkar kimdirsə onu,
Tale ürəyindən bir gün vuracaq.

### YADIMDAN ÇIXDI

Tale piyaləmə göz yaşı süzdü,
İçmədim, qisasın canımdan çıxdı.
Elə yaşatdı ki, mənə sərt qışı,
Neçə yaz yaşadım, yadımdan çıxdı.

Sevdamın nübarı yeyilməz oldu,
Eşqimin libası geyilməz oldu.
Dərdim gizli qaldı, deyilməz oldu,
Səadət, xoşbəxtlik yadımdan çıxdı.

Adıma dedilər qərib, kimsəsiz,
Bir günüm olmadı dərdsiz, ələmsiz.
Dedilər yaşanmır həyat həmdəmsiz,
Yar sevdim, həyatım yadımdan çıxdı.

Yaşadım ömrümü, günümü küskün,
Hicranla savaşıb, vuruşdum hər gün.
Tale elə baxdı üzümə bir gün,
Bütün arzularım yadımdan çıxdı.

Bəxtlə də bir gizli görüşüm vardı,
Aldadıb əlimi-qolumu sardı.
Məni elə yerə alıb apardı,
Dərd gördüm, öz dərdim yadımdan çıxdı.

### ÜRƏYİM

Yenə taleyimdən giley eləyib,
Niyə qınayırsan məni, ürəyim?
Xətrinə dəyməsin acı sözlərim,
Görürəm yolunda çəni, ürəyim!

Mən də istəyirəm xoş gün görəsən,
Sevdiyin biriylə ömür sürəsən.
Mənə də bir azca hüzur verəsən,
Qorxuram aldadar səni, ürəyim!

Ağlıma gələnlər çıxıb qarşıma,
Nədən qorxmuşamsa gəlib başıma.
Kimsə acımayıb göz yaşlarıma,
Günlərlə ağladıb məni, ürəyim!

Azmı qədər deyib, dərdə yenildik,
Qismət qapısından geri çəkildik.
Biz nə şəfqət gördük, nə də sevildik,
Artıq qoruyuram səni, ürəyim!

Sənsən bu dünyada yaşadan məni,
Köməksiz buraxma sevirəm səni.
Vəfadan istə sən hər diləyini,
Yarı yolda qoyma məni, ürəyim!

### SORAQLI KÖNLÜM

Sən dözdün həyat da hər cür dərd-sərə,
Açdın ürəyini doğma ellərə.
Çıxdın atəşlərdən, düşdün sellərə,
Hərdən xoş vüsallı, fəraqlı könlüm!

Artıq unudubdur sığalı telim,
Qırılıb qanadım, qırılıb belim.
Bir gün yoxa çıxar qəmim, nisgilim,
Olarsan nəğməli, növraqlı könlüm!

Şər məndən çəkinib bir gün yan durar,
Nifrətimin odu onu yandırar.
Eşqimi inamım alovlandırar,
Həmişə məşəlli, çıraqlı könlüm!

Qoşa qanadımdır gözəllik, həyat,
Haqqı qoruyanda oluram rahat,
Gərək görüb-duyub hər gün, hər saat,
Keçmişi, sabahı maraqlı könlüm!

Çox igid udubdur, o gedər-gəlməz,
Əzabım böyükdür, ölçüyə gəlməz.
Vətən sevinməsə ürəyim gülməz,
Xoş xəbər gözləyən soraqlı könlüm.

### SƏNLİ GÜNLƏR... SƏNLİ ANLAR

Dilimdə xoş sözə dönüb
Sənli günlər, sənli anlar.
Xatirimdə izə dönüb
Sənli günlər, sənli anlar.

Hanı o yol, hanı o iz,
Axı niyə dəyişdik biz?
Olub vüsal çələngimiz
Sənli günlər, sənli anlar.

Qopub tufan, solub çiçək...
Çəkil yoldan bir ilğım tək.
Daha geri dönməyəcək
Sənli günlər, sənli anlar.